Dövlət Statistika Komitəsi nümayəndəsinin İsveçrənin Cenevrə şəhərində təşkil olunmuş "İstehlak qiymətləri indeksinə dair" ekspert qrupunun XI sessiyasında iştirakı haqqında

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Qiymət statistikası şöbəsi sektorunun müdiri Bəhruz Seyidli 30 may – 1 iyun 2012-ci il tarixində İsveçrənin Cenevrə şəhərində keçirilmiş BMT-nin Avropa İqtisadi Komissiyası və Beynəlxalq Əmək Təşkilatının təşkilatçılığı ilə istehlak qiymətləri indeksinə həsr olunmuş ekspert qrupunun XI sessiyasında iştirak etmişdir.

İclasa sədrlik edən İsveçrə Federal Statistika Ofisinin Qiymət bölməsinin rəhbəri xanım Korrine Bekker Vermeulen ekspert qrupunun XI sessiyasının gündəliyinə daxil edilmiş məsələlərin aktuallığını qeyd edərək, müzakirə üçün təqdim olunan məsələlərə dair qısa məlumat verdi.

İclasın birinci günü "Mənzil bazarında qiymət indeksləri", "Qiymət indeksləri sistemləri" mövzuları üzrə mühazirələr oldu. Qeyd olundu ki, daşınmaz əmlak bazarında qiymətlərin dəyişməsinin son maliyyə böhranına böyük təsiri olmuşdur. Lakin həmin dövrdə mənzil bazarında qiymətlər və onun dinamikasına dair statistik məlumatlar mövcud olmamışdır. Maliyyə, iqtisadi və siyasi sahədə fəaliyyət göstərənlər mövcud situasiyanı təsvir etmək, qiymətləndirmək və gələcəkdə mənzil bazarında formalaşacaq qiymətlərə proqnoz vermək üçün üzlərini statistikaya çevirdilər. Bütün bu artan müraciətlərə cavab vermək və rəqəmləri təqdim etmək üçün bu sahədə müvafiq sistemin qurulması daha vacib məsələyə çevrildi. Qarşıya qoyulmuş məsələnin metodoloji aspektləri Avropa Statistika Bürosunun maliyyə dəstəyi, Qiymət Statistikası üzrə İşçi Qrupunun nəzarəti altında beynəlxalq ekspertlər qrupu tərəfindən 2009-2011-ci illər ərzində hazırlanmışdır.

Müzakirə olunan növbəti mövzu "Qiymət indeksləri sistemi"nə dair oldu. Bu sistem qiymətlərin qeydiyyatı və qiymət indekslərinin hesablanması zamanı vahid metodologiyanın tətbiqini, milli hesablar sisteminin tələblərinin nəzərə alınmasını, istifadəçilərin qiymət məlumatlarına olan tələbatının öyrənilməsini tələb edir.

Azərbaycanda istehlak qiymətləri indeksi Beynəlxalq Valyuta Fondunun metodoloji tövsiyələri və dəstəyi ilə işlənib hazırlanmış və 1995-ci ilin yanvar ayından ölkədə inflyasiya səviyyəsini əks etdirən rəsmi göstərici kimi tətbiq olunur.

İclasın II günü "Skan olunmuş məlumatlar", "Qiymətlərin yığılmasının yeni metodları" və "Xidmətlər üzrə keyfiyyət düzəlişləri" mövzularında mühazirələr oxundu. Fransa, İsveç, Danimarka, Norveç və Amerika Birləşmiş Ştatları skan olunmuş məlumatların pərakəndə ticarət məntəqələrindən alınması, onun tətbiqi və işlənməsində qarşıya çıxan problemlərdən danışdılar. Qeyd olundu ki, əvvəllər Fransada skan olunmuş məlumatlar əsasında istehlak qiymətləri indeksinin tərtib olunması cəmiyyətdə müəyyən şübhələrlə qarşılanırdısa, hazırda bu prosesin necə tətbiq olunacağına və nəticələrinə dair hədsiz maraq mövcuddur.

Qiymətlərin yığılmasının yeni metodlarından biri olan internet resurslarından istifadə ilə bağlı məruzələrdə bir sıra məqamlara toxunuldu. İnternet bazarı kifayət qədər inkişaf etməmiş ölkələrdə internetdən qiymət məlumatlarının yığılmasının məqsədəuyğun olmadığı qeyd olundu.

Norveçdə 10 il əvvəl qiymətlərin yığılmasının ənənəvi üsulundan, yalnız kağız anketlərdən istifadə olunmuşdur. Sonralar internetə çıxışı olan bir sıra sahələr bu məlumatları elektron formada göndərməyə başladılar. Hazırda Norveçdə məlumatların 20 faizi kağız anketlər, 37 faizi elektron məlumatlar, 13 faizi veb-sorğular, 20 faizi skan olunmuş məlumatlar, 10 faizi ikinci mənbədən (federal hakimiyyət orqanlarından) alınan məlumatlar vasitəsilə əldə olunur.

İstehsal xarakterli xidmətlər üzrə mövcud metodologiyanın təkmilləşdirilməsi üzrə işin 2013-cü ilin əvvəlində başa çatacağı haqqında məlumat verildi. Xidmət statistikası sahəsində xüsusi təcrübəyə malik Voburq qrupunun istehsal xarakterli xidmətlər üzrə keyfiyyət dəyişikliklərini aşkar etmək üçün tətbiq oluna biləcək bir sıra metodlardan danışıldı.

İclasın III günü istehlak qiymətləri indeksinin tərtib edilməsində xüsusi çəki kimi istifadə edilən ev təsərrüfatlarının faktiki istehlak xərclərinin ayrı-ayrı ölkələrdə strukturundan danışıldı. Həmçinin istehlak qiymətləri indeksi və sənaye məhsullarının qiymət indeksi üçün nəzərdə tutulmuş proqram təminatına dair məlumat verildi.